Xalq qəzeti .- 2022.- 30 sentyabr.- S. 3

# Azərbaycan qalib xalq kimi əbədi yaşayacaq

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 28 Sentyabr Anım Günündə Fizuliyə və Şuşaya səfərləri, Qaraxanbəyli kəndi yaxınlığında ucaldılmış xatirə lövhəsinin önünə gül dəstələri qoymaları, Vətən müharibəsi şəhidlərinin xatirəsini məhəbbətlə və böyük hörmətlə yad etməkləri, ölməz oğullarımızın, əsgər və zabitlərimizin hünərlərini yüksək qiymətləndirmələri hər bir insanda qürur hissi doğurur.***

Dövlətimizin rəhbərinin 44 günlük müharibə zamanı keçilən şanlı mübarizə yolunu dönə-dönə xatırlatması, xalqımızın və ordumuzun yenilməzliyinə, mübarizliyinə diqqəti cəlb etməsi, müharibəni hər dəfə şanlı tariximiz adlandırması hər bir şəhidə, qaziyə, şəhid ailəsinə xalqa böyük hörmətin, ehtiramın ifadəsidir.

Vətən uğrunda canından keçən qəhrəmanların şəhid olduğu ilk yerlərdən birində çəkdirilən şəkillər, həm də dünyaya bir mesajdır–heykəlləşən, əbədiləşdirilən tariximizin simvolu, möhkəmliyimizin, mübarizələrə hazır olmağımızın rəmzidir.

Hər bir əsgər və zabitimiz bu qaya parçası kimi möhkəmdir və istənilən anda düşmənin belini qırıb başına düşə bilər. Çünki o şəhidlərimizin qanından yoğurulub, torpaqla qanın qovuşması, birləşməsi, bütövləşməsidir. Müharibənin ilk günlərində azad edilən Qaraxanbəyli kəndindəki bu xatirə lövhəsi uğurlarımızın başlanğıcının təməl daşı olmaqla bərabər, həm də gələcək qələbəmizin yol göstəricisidir. Bu daşın dili olsaydı, sözsüz ki, burdan keçən hər insana səslənərdi: “Qələbəmiz burdan başlayıb, bu yolu tut və uğurla davam etdir” deyərdi.

İşğaldan azad olunan hər kəndin, şəhərin, hər qarış torpağın, daşın dərdini-sərini, arzusunu, istəyini dövlətimizin rəhbəri yaxşı duyur. Çünki bu nisgili, ağrıları, acıları o, uzun illər qəlbində yaşadıb, ovudub, doğmalaşdırıb. Cənab İlham Əliyev bu dərdləri – torpaq həsrətini, xalq mənafeyini həyatının mənasına, ömrünün dəyərinə çevirməsəydi, gecəli-gündüzlü Qarabağın azadlığı uğrunda düşünməsəydi, böyük çətinliklərə mətanətlə sinə gərməsəydi, hər bir şəhidin itkisini ürək ağrısına, göz yaşına çevirməsəydi, belə möhtəşəm bir qələbəni qazanmaq – 30 ildən çox düşmən tapdağı altında inləyən torpaqlarımızı işğaldan azad etmək mümkün olmazdı. Az bir müddətdə 300-ə yaxın şəhər və kənd düşməndən azad edilməzdi.

Azərbaycan Prezidenti düşmən üzərində tarixi qələbəmizə böyük önəm verir: “Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisələrin şahidləriyik, iştirakçısıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz mübariz xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq” – deyir.

Əlbəttə ki, Azərbaycan xalqı bu fikirləri dəstəkləyir və özünün xoşbəxt gələcəyi üçün ölkə rəhbərinin ətrafında sıx birləşməyi, ona daim dəstək verməyi məqsədəuyğun hesab edir.

**Tahir RZAYEV,**
**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri**